Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...

Səh. 4-5 TÜRKİYƏ SƏFİRİNİN MÜSAHİBƏSİ

Səh. 2 NOYABRIN 1-DƏN HÖKUMƏT VƏTƏNDAŞLARIN 4 AYLIQ KOMMUNAL XƏRCLƏRİNİ ÖDƏMƏYƏ BAŞLAYIR

Səh. 6 VƏTƏNDAŞ CƏMİYYƏTİNİN SUSQUN FƏALLARI – "HUMANİSTLƏR"

Səh. 3 HACI BƏKİROĞLU YAZIR...

Səh. 6 AFİQ MUXTAROĞLU YAZIR...

Səh. 3 DAVİD ZALKALİANİ TÜRKİYƏYƏ BAŞSAĞLIĞI VERİB

Səh. 7 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA



İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR 2020-Cİ İL №015 (119)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTAN QIRMIZI ZONA ELAN OLUNUB




"Gürcüstan koronavirus infeksiyasının yayılması baxımından "narıncı" zonadan "qırmızı" zonaya keçib". Bu barədə ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib.

O, Gürcüstanda yoluxmanın pik dövrünün noyabrın ikinci-üçüncü həftəsində yaşanacağını deyib.

Mərkəz rəhbərinin sözlərinə görə, ölkədə testləmə üzrə yaxşı göstərici əldə olunub.

"Milyon nəfər əhaliyə 213 min test düşür. Hər gün ölkə üzrə 10 minə yaxın test aparılır ki, bu da pandemiya şəraitində yaxşı göstərici hesab olunur", - A.Qamkrelidze bildirib.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 300-Ü KEÇİB

Gürcüstanda koronavirusdan ölənlərin sayı 307 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında bildirilir.

Oktyabrın 31-nə olan son məlumatlara əsasən, ölkədə koronavirusa yoluxanların ümumi sayı 38936 nəfər, sağalanların sayı isə 22691 nəfər təşkil edib.



Ölkə üzrə karantin rejimində 3001 nəfər, stasionar nəzarətdə 4136 nəfər olub. COVID mehmanxanada olan şəxslərin sayı 2245 nəfər, xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə 41 nəfərdir.

## İLHAM ƏLİYEV: GÜRCÜSTANLA MÜNASİBƏTLƏRİMİZ MÜKƏMMƏLDİR



"Bizim Gürcüstanla münasibətlərimiz mükəmməldir. Biz bir-birimizi strateji tərəfdaş adlandırırıq". Bu barədə Azərbaycan prezidenti İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, Azərbaycan Gürcüstanda birinci və ya ikinci ən böyük investor, yaxud birinci və ya ikinci ən böyük vergi ödəyicisidir: "Mən birinci və ikinci deyirəm, çünki bir il Türkiyə olur, bir il Azərbaycan. Bizim Türkiyə, Gürcüstan və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq formatımız var. Bizim prezidentlər səviyyəsində sammitlərimiz, nazirlər səviyyəsində, o cümlədən müdafiə, xarici işlər və iqtisadiyyat nazirləri səviyyəsində görüşlərimiz olub. Bizim bütün əsas nəqliyyat və enerji kommunikasiyamız Gürcüstan ərazisindən keçir. Gürcüstanda böyük azərbaycanlı icmamız var, 300 minə yaxın adam. Ona görə də münasibətlər mükəmməldir və düşünürəm ki, Türkiyə ilə münasibətlərimiz kimi, Gürcüstanla münasibətlərimiz də mehriban qonşuluğun yaxşı nümunəsi ola bilər. Yeri gəlmişkən, Gürcüstanın xristian, Azərbaycanın müsəlman ölkəsi olması faktının heç bir fərqi yoxdur. Biz bu regiona bu nöqteyi-nəzərdən baxmırıq".

*Mənbə: newsbureau.ge*



# SÜKUTUN SƏSİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Sükutda daha çox öskürək səsi eşidilər. Öskürək həm də sözü yarımçıq kəsər. Burada həkimi-nəbatatlıq edib sizlərə nəfəs yolları xəstəliklərinin müalicəsindən-zaddan danışan deyiləm, haqqında danışmaq istədiyim cümlənin başındakı SÜKUT sözüdür ki, öskürəyin eşidilməsinə də məhz o səbəb olur. Əslində sükutun da öz səsi var. Və bu səsi müdriklikdən acizliyə qədər yozublar.

Mən alimə yaraşan sükutu (Həzrət Məhəmməd), ariflər işi olan sükutu (Nizami Gəncəvi), başıboş adamı müdrik göstərən sükutu (Həzrət Əli), qəzəbin yeganə dərmanı olan sükutu (Sokrat), qızıl olan sükutu (atalar sözü), güclü haraydan daha təsirli (Siseron) və irfani sükutu nəzərdə tutmuram.

Sükutu pozaraq danışmaq istədiyim haqsızlığa, ədalətsizliyə, problemlərə "üç meymun"luq edərək gözlərini, qulaqlarını, ağızlarını qapayaraq susanlar, sükut edənlər haqqındadır. Axı, yersiz söz demək kimi, yersiz susmaq da ağıla nöqsan sayılır (Sədi Şirazi).

Bu gün ağlına güvənilən ziyalılar isə görünür dərin sükuta dalıblar. Və onların bu sükutu fonunda kim nə istəyir, necə istəyir, harada və nə zaman istəyir ağzına gələni danışır.

Ziyalı susarsa, ziyasız danışar. Ziyasızın danışması isə öskürəkdən başqa bir zad deyil.

İndi beş-altı kitab oxuyanlar meydanı boş görüb özlərini ortalığa ataraq millətə "ağıl" öyrədirlər. Öyrətsinlər, amma gərək bu ağıldakı "ağ"ı qaralamayasan.

Özlərini həqiqətpərəst, humanist, beynəlmiləlçi kimi sırıyan, liberal kosmetika ilə bəzənən bu şüvənçilər azərbaycanca yaşasalar da, fransızca fikirləşib, ingiliscə danışmaq istəyirlər (gürcücə fikirləşib azərbaycanca danışanları da var).

Məsələn:

Bir dəfə də olsa üzünü görmədiyi, şəkillərdən tanıdığı kilsənin çürük taxtası qısaqapanmadan alışıb yanır, bizim bu "qardaş" bir ay yas saxlayır, ağlayıb-sızlayır, qırx gün saqqalını qırxmır, toylara çıxmır ki, bəs o boyda abidə yanıb, sizin bu geridəqalmış adətlərinizə əl-qol açıb necə oynayım. Amma bombalanan, partladılar, içərisinə donuz, mal-qara doldurulmuş məscidlərə gələndə gözləri kor olur.

Öz hüququ hər addımda tapdalanan bu "dostumuz" Qurban bayramında başlayır qoyunların hüququndan-zaddan barbar bağırmağa. Müsəlmanları "qoyun soyqırımında" qınayan, amma kafelərdə, restoranlarda qoyun, quzu, dana ətinin ən gözəl tikələrini mədəsinə bəhbəhlə ötürən (qarşısına eşşək əti də qoysan yeyər) bu heyvansevər xristianların hinduşka qırğınına, kərgədan, fil qətlyamına lal olur.

Gecə-gündüz internetdə adını ilk dəfə eşitdiyi ölkələrdə müsəlman "terrorçu" axtarır ki, paylaşsın, "ifşa" eləsin, terrora qarşı olduğunu gözə soxsun, amma adını "qonşu ölkə" qoyduğu qulağının dibində günahsız insanları, qadınları, uşaqları qətlə yetirən əsl terrorçuların atdıqları topun səsini eşitmir, kar olur.

Bu, hörmətli "abrazavonskilər", humanistlik, tolerantlıq, müasirlik, liberallıq, ədalətlilik deyil, bu, yad propaqandalardan mayalanaraq düşmənçilikdir, qınından çıxıb, qınını bəyənməməkdir, qərəzlilikdir, vicdansızlıqdır və s.

Və bunların ayaqları altına dəyərləri qoyaraq tribunalarda boy vermələrinin səbəbkarı, günahkarı sükuta qərq olmuş ziyalılardır. Bunlar ziyalıların sükutunun səsidir. Axı, susmaq razılıq əlamətidir, hörmətli ziyalılar.

## NOYABRIN 1-DƏN HÖKUMƏT VƏTƏNDAŞLARIN 4 AYLIQ KOMMUNAL XƏRCLƏRİNİ ÖDƏMƏYƏ BAŞLAYIR

Baş nazir Giorgi Qaxaria bildirib ki, "noyabrın 1-dən etibarən dörd aylıq kommunal hesabların ödənişləri həyata keçiriləcək".

Onun sözlərinə görə, qeyd olunan köməyə ehtiyacı olmayan vətəndaşlar yazılı formada bundan imtina edə bilərlər.



Hökumət başçısı deyib ki, bu dəstək 200 KVt-a qədər elektrik enerjisi, 200 kubmetrədək qaz istifadə edən vətəndaşlara şamil olunacaq.

"Ödənişlər su və təmizlik xidməti ilə bağlı xərcləri də əhatə edəcək. Bu, hökumətin vətəndaşları üçün edə biləcəyi minimum dəstəkdir", - deyə G.Qaxaria bildirib.

## BAŞ EPİDEMİOLOQ: GÜRCÜSTANDA TİBBİ MASKADAN İSTİFADƏNİN MƏCBURİ OLACAĞI BARƏDƏ QƏRARIN QƏBULU İSTİSNA EDİLMİR



Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidzenin sözlərinə görə, Gürcüstanda tibbi maskadan istifadə göstəricisi təxminən 60-64% təşkil edir və bu göstərici 95% səviyyəsində olmalıdır.

"Bu göstəriciyə nail olunsa, koronavirusa yoluxma sayı əhəmiyyətli dərəcədə azalacaq", - deyə A.Qamkrelidze vurğulayıb.

Mərkəz rəhbəri qeyd edib ki, Gürcüstanda tibbi maskadan istifadənin məcburi olacağı barədə qərarın qəbulu istisna edilmir.

## BAŞ NAZİR: GÜRCÜSTANDA QAZLAŞDIRMA SƏVİYYƏSİ 90%-Ə ÇATDIRILACAQ

Baş nazir Giorgi Qaxaria bildirib ki, Gürcüstan hökuməti qazlaşdırma üzrə dövlət proqramının müddətinin 2024-cü ilə qədər uzadılması barədə qərar qəbul edib.

Onun sözlərinə görə, 2019-cu ildən üçillik proqramın icrasına başlanılıb.



"Bu plan çərçivəsində 384 kəndin təbii qazla təminatı başa çatdırılacaq. Lakin bu yetərli deyil. 2021-2024-cü illər üzrə proqram çərçivəsində əlavə olaraq 211 kənd və təxminən 33 min ailənin qazdan istifadə imkanı yaranacaq. Bu, o deməkdir ki, Gürcüstanda qazlaşdırma səviyyəsi 90%-ə çatdırılacaq", - deyə baş nazir bildirib.

## XARİCİ VƏTƏNDAŞLARIN GÜRCÜSTANA GİRİŞ QAYDALARI DƏYİŞDİRİLİB

Hökumətin qərarına əsasən, xarici vətəndaşların Gürcüstana giriş qaydaları dəyişdirilib.

Qərara görə, əcnəbilər sərhəddə son 72 saat ərzində aparılan PCR testinin nəticəsini əks etdirən arayış təqdim etməlidir. Bundan sonra onlar 8 günlük özünütəcrid rejiminə keçməlidirlər.

Gürcüstana səfər edən əcnəbinin tələb olunan arayışı olmayacaqsa, o, karantinə alınacaq. Bu qayda Gürcüstanda yaşayış izni olan xarici ölkə vətəndaşlarına da şamil olunur.

Yeni qaydalar İspaniya, Lüksemburq, Hollandiya, Portuqaliya, Rumıniya, Yunanıstan, İsveç, Xorvatiya, İtaliya, Kipr, Sloveniya, İslandiya kimi ölkələrə aiddir.

Gürcüstanda təhsil alan əcnəbi tələbələr ölkəyə qayıdarkən mütləq qaydada koronavirusla bağlı arayış təqdim etməli və 12 günlük karantində olmalıdırlar.

Ölkəyə səfər edən diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatların təmsilçiləri üçün isə istisnalar var. Belə ki, bu şəxslər sərhəddə yalnız testin nəticəsini təqdim etməli olacaqlar.

*Mənbə: report.az*

## DAVİD ZALKALİANİ TÜRKİYƏYƏ BAŞSAĞLIĞI VERİB



Gürcüstanın xarici işlər naziri David Zalkaliani Türkiyənin İzmir vilayətində baş verən güclü zəlzələ ilə bağlı başsağlığı verib.

XİN başçısı başsağlığı sözlərini rəsmi tvitter hesabında yazıb:

"Düşüncələrimiz və dualarımız Türkiyə xalqı, dağıdıcı zəlzələ qurbanları və xəsarət alanların ailələri ilədir. Bütün yaralıların tezliklə şəfa tapmasını diləyirik".

## DAVİD ZALKALİANİ AZƏRBAYCANI TƏBRİK EDİB

Xarici işlər naziri David Zalkaliani rəsmi tvitter hesabında Azərbaycanı 18 oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edib.

Təbrikdə deyilir: "Azərbaycanı Dövlət Müstəqilliyinin elan olunmasının 29-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, strateji tərəfdaşımızla nümunəvi münasibətlər bundan sonra da bölgəmizdə sülh, sabitlik və tərəqqiyə töhfə verəcək"



## ERMƏNİSTANIN AZƏRBAYCAN ƏHALİSİNƏ QARŞI HÜCUMLARI NƏTİCƏSİNDƏ 91 MÜLKİ ŞƏXS ÖLÜB, 400 NƏFƏR YARALANIB



"Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı hücumları nəticəsində sentyabrın 27-dən oktyabrın 30-nadək 91 nəfər ölüb, 400 nəfər yaralanıb". Bunu Azərbaycanın Baş prokuroru Kamran Əliyev keçirdiyi brifinqdə bildirib.

Onun sözlərinə görə, yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 428, çoxmənzilli yaşayış binalarının sayı 92, yaşayış evlərinin sayı isə 2 442-dir.

*Mənbə: newsbureau.ge*

## XİN BAŞÇISI RUSİYA İLƏ MÜNASİBƏTLƏRİN NORMALLAŞMASI ÜÇÜN ŞƏRTLƏRİ AÇIQLAYIB

"Rusiya Gürcüstan ərazilərinin işğalına son qoyandan sonra, ölkəmizin ərazi bütövlüyü və suverenliyini tanıyandan sonra münasibətlərin normallaşmasından danışmaq olar". Bu barədə Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib.

Onun sözlərinə görə, münasibətlərin düzəlməsi üçün Rusiya işğal altında saxlanılan iki bölgənin müstəqilliyini tanıması barədə qərarını mütləq geri götürməlidir.



## SÖZƏ YOX, SÖZÜ SÖYLƏYƏNƏ BAX!



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Öncəliklə bütün İslam aləmini Həzrət Peyğəmbərin mübarək mövludu səbəbi ilə təbrik edirəm. İnsanlığı cəhalətdən qurtarıb nura, aydınlığa və mədəni bir həyata qovuşduran bir Peyğəmbərin ümməti olduğumuz üçün Allaha nə qədər şükr etsək də azdır. Ümməti üçün nə qədər zülmlərə, əzablara dözən bir Peyğəmbərin ümmətiyik biz. Bunun üçün qürur duymaqdan başqa yolumuz varmı görəsən? Əsrlər öncə yaşamasına baxmayaraq bu gün də insanların qəlbində taxt quran yeganə insandı Həbibullah. Bəli, o, gəlmiş və gələcək insanlar içərisində Allahın sevgilim deyərək xitab etdiyi yeganə insandır.

Uca Allahın "(Ey Peyğəmbər!) Biz səni yalnız aləmlərə rəhmət olaraq göndərdik!" (Ənbiya, 107) ayəsindən də göründüyü kimi, o, bu dünyaya bir rəhmət, bir qurtarıcı olaraq göndərilmişdir.

Bütün İslam aləmi bu gözəl günü, mübarək mövludu qeyd etməyə hazırlaşarkən Fransanın prezidenti Makron yenə də etdi öz fransızlığını. Makronun etdiyi bu hərəkət İslam dünyası üçün bir təhqir, bir alçaltma olaraq dəyərləndirilməlidir. Hər zaman insan haqlarından, ədalətdən və hüquqdan danışan Avropa isə bu hadisə qarşısında bu gün lal olub, kar olub, kor olub.

Fransa prezidenti Emmanuel Makron ölkəsinin Yvelines bölgəsindəki Les Mureauks kommunasında "separatizm" mövzusunda bir toplantıya qatılıb. Burada İslamı hədəf alan Makron "Fransadakı İslamı xarici təsirlərdən qurtarmağımız lazımdır. İslam bu gün dünyanın hər yerində böhran yaşayan bir dindir" ifadələrini işlədib. Fransadakı imamlar üçün "islahat" ediləcəyini söyləyən fransız lider Türkiyənin, Fasın və Əlcəzairin fransalı imamları öyrətməsinə son verəcəyini dilə gətirib. İmamların təhsili üçün yeni bir sistemin qurulacağını ifadə edən Makron, ibadətxanaların və dərnəklərin necə maliyyələşməsini daha möhkəm bir şəkildə nəzarət ediləcəyini söyləyib. Bununla yetinməyən Makron daha sonra Həzrət Peyğəmbərin karikaturasını şəhərin müxtəlif yerlərindən asdırıb. Bu səbəblə də bu gün bütün İslam aləmində Fransaya və fransız məhsullarına qarşı boykot elan edilib.

Bu hadisə isə Türkiyə rəhbərliyinin Azərbaycanın Qarabağ uğrundakı haqlı savaşındakı dəstəyindən sonra baş verdi. İlk öncə Makron, Fransanın Minsk Qrupunun üzvü olmasına və bu müharibədə bitərəf qalmasının lazımlılığına baxmayaraq Ermənistana olan dəstəyini açıqca ifadə etməsi üzərinə Azərbaycan və Türkiyə rəhbərliyindən aldığı sərt qarşılıq nəticəsində həm İslam dünyasını, həm də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı təhqir edib.

Bu səbəblə bu gün İslam dünyası bir yumruğa dönməli və ona qarşı çıxanları lazımı səviyyədə susdurmalıdır.

İslam dini Makron kimi fransıza hamam mədəniyyətini öyrədən bir mədəniyyətdir. Onun qurucusu Allahdır və bu dini bəşəriyyətə gətirən Həzrət Məhəmmədi (s.ə.s) Allah ucaltmışdır. Başqasının xanımına göz dikən Makron kimi ədəbsizlərin söz söyləməsiylə o zirvədən bir şey əskilməz.

Digər tərəfdən, söz söyləyəsi olsaq, cənab Makron, sən kimsən ki, İslam dinində islahatlar aparırsan. Sən öncəliklə öz ədəbin və ərkanında islahat apar, sonra müsəlmanlara söz söyləməyə haqqın olsun. Necə deyərlər, sözə yox, o sözü söyləyənə bax.

# TÜRKİYƏNİN GÜRCÜSTANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FATMA CEREN YAZQANIN "KVIRISPALITRA.GE" SAYTINDA YAYIMLANMIŞ MÜSAHİBƏSİ



*Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan bildirir ki, Türkiyə Cənubi Qafqazda daimi sülh olmasını istəyir və Qarabağ münaqişəsinə qoşulmağı planlaşdırmır. Bu müharibədə Gürcüstanın rolunu necə təsəvvür edir və əgər Ermənistan-Azərbaycan konfliktinə Rusiya qoşularsa nə baş verəcək?.. Səfir bu və digər vacib məsələlərlə bağlı "Kviris Palitra"ya eksklüziv müsahibə verib:*

**– Qarabağda baş verən hadisələr münaqişəyə başqa, güclü aktorların** *(Aktor – siyasi proseslərin iştirakçısı - RED.)* **da qoşulması təhlükəsini gücləndirir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür və müvafiq olaraq Rusiyaya prosesə daha fəal qoşulmaq imkanı verir. Beynəlxalq ictimaiyyət tərəfləri daim atəşi dayandırmağa, sülh danışıqlarına çağırırdı. Ancaq Türkiyənin ritorikası Azərbaycanınkından təəccüblü idi. Maraqlıdır, Türkiyənin və prezident Ərdoğanın hansı strategiyası var?**

– Ermənistan Gəncəni bombalayandan sonra 10 oktyabr müqaviləsi də elə orada başa çatdı. Hərbi fəaliyyətin məqsədi Azərbaycanın itirilmiş torpaqlarını qaytarmasıdır. Münaqişəyə səbəb isə iyulda Ermənistanın Qarabağdan çox uzaqda, Azərbaycan tərəfdə yerləşən Tovuzu bombalaması oldu. Sonra toqquşma artıq sərhəddə davam edib və Azərbaycan qarşı tərəfə cavab vermək məcburiyyətində qalıb.

Türkiyənin mövqeyi aydındır – biz münaqişədə iştirak edən tərəf deyilik, ancaq Azərbaycanın işğal edilmiş ərazilərini azad etməsi istəyini və bu işğalın Azərbaycan üçün yaratdığı təhlükəni zərərsizləşdirməsini dəstəkləyirik.

Bizim dəstəyimiz ərazi bütövlüyü və legitim müdafiə prinsipinə söykənir – bu, beynəlxalq hüququn əsas məsələsidir. Türkiyə bu prinsiplə Ukraynanı, eləcə də Gürcüstanı dəstəkləyir. 30 ildir Minsk Qrupu (Türkiyə də bu qrupun üzvüdür) cəhd edir ki, bu münaqişədə sülh razılığına nail olsun, ancaq bu razılaşma sülh demək deyil.

Türkiyə bildirir ki, bu münaqişənin dondurulması regionda stabillik və təhlükəsizliyin mütəmadi pozulmasına, münaqişənin eskalasiyasına səbəb olur. Bundan irəli gələrək, Minsk Qrupunun həmsədrləri – ABŞ, Rusiya və Fransa fəal diplomatiya yolu ilə problemin kökündən həllinə çalışmalıdırlar. Oxşar toqquşmalar 2016-cı ildə də baş vermişdir. Ondan sonra 4 il ötüb və Minsk Qrupu bu günə qədər atəşkəsə nail olmağa çalışır. Bundan kim fayda əldə etdi? Ermənistan. O işğal edilmiş Qarabağda, eləcə də ətraf ərazilərdə Orta Şərqdən yeni məntəqələr yaratmağa başladı.

*Nikol Paşinyanın Ermənistanın baş naziri olmasından sonra danışıqların bərpa olunacağı gözlənildi, ancaq məsələ irəli getmədi. Mən Duşetidə idim, eşitdim ki, Ermənistan bütün energetika və strateji rabitələrin keçdiyi, bizim 30 ildir Azərbaycan, Gürcüstan və Amerika ilə birgə işlədiyimiz layihələrin lokasiyasına – Tovuz rayonuna hücum edib. Mənim belə sualım var: Ermənistanın Tovuza hücum etməkdə məqsədi nə idi?*

Atəşkəs xəttində əvvəllər də insidentlər baş verməşdi, ancaq Tovuzdan sonra bu daha intensiv oldu. Vəziyyət təcili diplomatik müdaxiləni tələb etdiyi səbəbindən Türkiyə dəfələrlə Minsk Qrupu üzvləri ilə görüşdü, ancaq onlar heç nə etmədilər və sonra münaqişə başlayanda atəşkəslə bağlı çağırışlar eşidildi, amma heç kim sülh planı təqdim etməyib.

Əgər işğal edilmiş ərazilərini qaytarmaq istəyən Azərbaycanı atəşi dayandırmağa çağırırlarsa, eyni zamanda Ermənistanı da işğala, hücumlara son qoymağa və danışıqlar masasına oturmağa çağırmalıdırlar.

Türkiyənin mövqeyi çox möhkəmdir – bu regionda permanent sülh olmalıdır və bu mövzuda cənab Ərdoğanla bağlı spekulyasiya etmək düzgün deyil.

**– Mən Ərdoğan dedikdə Türkiyəni nəzərdə tuturdum.**

– Əlbəttə ki, cənab Ərdoğan prezidentdir və o, ölkənin maraqlarını yüksək səviyyədə səsləndirəndir. Ancaq çox təxribatçı məqalələr oxuyuram, guya ki, o, Osmanlı imperiyasının bərpasını düşünür və bu, Türkiyənin geniş siyasətidir. Əlbəttə, bu, ağ yalandır. Türkiyənin böyük bir hissəsi bu gün Azərbaycanın hüquqlarının pozulduğunu görür, bu, yalnız etnik əlaqələrdən qaynaqlanan simpatiya deyil.

**– Niyə? "Bir millət iki dövlət" – bu ifadə məhz sizin inkar etdiyiniz əhval-ruhiyyəni təsvir etmirmi?**

– Əlbəttə, bu doğrudur, amma Türkiyənin reaksiyasının səbəbi Azərbaycanla bağlı baş verən ədalətsizlikdir.

**– Siz Gürcüstan və Ukraynaya dəstəyinizi xatırlatdınız. Həmçinin deyirsiniz ki, Türkiyə hüququ tapdalanana yardım edir (bunu prezident Ərdoğan da bildirib), həm də regionda daimi sülh istəyirsiniz, ancaq mən Türkiyənin müdafiə nazirinin Gürcüstanla bağlı oxşar bəyanatını eşitməmişəm. Gürcüstanın da hüququ tapdalanıb, biz də ərazilərimizi itirmişik və bizim mübarizəmiz də ədalətlidir…**

– Əgər xatırlamırsınızsa, indi xatırladaram – 2008-ci il müharibəsindən sonra Türkiyənin o zamankı baş naziri, indi isə ölkənin prezidenti Ərdoğan Gürcüstana gəldi və Gürcüstanın o zamankı prezidenti ilə birgə mətbuat konfransı keçirdi. Həmin dövrdən başlayaraq Türkiyənin Gürcüstanın ərazi bütövlüyü və NATO-ya üzvlüyü haqqında bəyanatları Azərbaycana dəstəyindən zəif deyil…

**– Ancaq düşünürəm ki, bu baxımdan Azərbaycana dəstək daha təsirlidir.**

*– Bu ikitərəflidir. Biz Azərbaycana tələb etdiyi qədər dəstək göstəririk, nə qədər ehtiyac duyarsa o qədər yardım edəcəyik. Məsələn, Azərbaycanın NATO-ya üzv olmaq kimi tələbi yoxdur. Həmçinin Avropa İttifaqına üzv olmaq perspektivi yoxdur.*

Əgər müqayisə etsək bir vacib məqamı nəzərə almalıyıq. Məsələn, Türkiyə Ukrayna ilə dronların satışına görə müqavilə bağlayıb. Biz Azərbaycana da dronlar satmışıq. Əgər Gürcüstanın da bu kimi tələbi olarsa Gürcüstana da satacağıq.

Azərbaycanla münasibətlərə gəldikdə, deyim ki, biz eyni dildə danışırıq. Bu, İsveçrə və Danimarkaya oxşar haldır, ancaq buna baxmayaraq prinsiplər dəyişməzdir.

*Əgər düşünsək ki, Azərbaycan legitim olmayan münaqişəyə qoşulub, biz onu dəstəkləməyəcəyik, bizim məqsədimiz uzunmüddətli sülhün əsasını qoymaqdır.*

Ermənistanda rus hərbi bazası yerləşir.

Rusiya hər iki tərəfə – Azərbaycana da, Ermənistana da silah verir. Fərq odur ki, Azərbaycan bu silahı alır, Ermənistana isə qrant şəklində hədiyyə verir. Məsələn, ABŞ Konqresi və Senatı bildirir ki, Gürcüstanın ərazi bütövlüyü pozulub, bununla belə Ermənistana BMT-nin qətnamələrini pozduğunu və öz qüvvələrini işğal edilmiş ərazilərdən çıxarmalı olduğunu xatırlatmırlar. Biz bu vəziyyəti görürük, deyirik ki, biz Azərbaycanı dəstəkləyirik, niyəsə bizim əleyhimizə yönəlmiş reaksianı nə mən, nə də Türkiyə başa düşmür. Biz hamıya aydın şəkildə deyirik ki, beynəlxalq münasibətlərdə, xüsusən də çox sayda münaqişələr baş vermiş və həssas vəziyyətdə olan Qafqaz və Balkanlar kimi regionlarda ikili standart çox təhlükəlidir.

Türkiyə münaqişə iştirakçısı deyil, bizim üçün münaqişənin bitməsi və sülhün əsasının qoyulması ən əsasdır. Bunu istəməsək 2009-cu ildə Ermənistanla Sürix protokolları prosesinə başlamazdıq. Biz regionun bu hissəsində qonşu dövlətlərə, həmçinin Gürcüstana və Türkiyəyə qarşı iddiaları olmayan ölkə istəyirik.

Türkiyənin istəyi belədir ki, Madrid razılaşmasına və Minsk Qrupunun formatına əsasən Ermənistan öz qüvvələrini işğal edilmiş 7 rayondan çıxarsın və danışıqlar davam etdirilsin. Ancaq buna nail olmaq üçün heç nə edilməyib.

Biz Qarabağ münaqişəsində üç təbliğat istiqamətini görürük:

1. Ermənistan bildirir ki, Türkiyə onu məhv etmək istəyir. Ermənistan Birinci Dünya müharibəsi zamanı, 1915-ci ildə aldığı travmanı bu günə qədər sağalda bilmir…

**– 1915-ci ilin soyqırımını nəzərdə tutursunuz?**

– Biz soyqırımı tanımırıq. Ermənistan ictimaiyyətə bu fikri ötürür ki, işğalı ört-basdır etsin və Türkiyəni bu münaqişənin tərəfi olaraq göstərsin. Türkiyənin Azərbaycana dəstəyi Rusiyanın, Fransanın və ABŞ-ın Ermənistana dəstəyindən fərqlənmir. Bundan əlavə, əgər yüz il əvvəlki faciəni xatırladırıqsa 1992-ci ildə Xocalıda baş vermiş faciəni də xatırlamaq daha düzgün olardı.

**– Axı sizin qeyd etdiyiniz ölkələr münaqişəyə qoşulmasını istisna etməyən Türkiyədən fərqli olaraq münaqişə tərəflərini atəşkəsə və sülh danışıqlarına çağırırlar.**

– Türkiyə münaqişəyə qoşulacağını heç vaxt bildirməyib!.. Türkiyə münaqişəyə onun ərazisinə hücum olunduğu halda qoşula bilər. Media Türkiyənin münaqişəyə nə zaman qoşulacağı mövzusu ilə bağlı təbliğat aparır, bir növ tələb edirlər ki, Türkiyə müharibəyə qoşulmayacağını elan etsin. O zaman eyni tələbi Almaniya, Fransa üçün də irəli sürməliyik… yoxsa Rusiya müharibəyə qoşulmayacağını bildirdi?! Türkiyəni şübhəli rolunda göstərmək üçün hər şey edilir. Etmədiklərimiz və heç vaxt etməyəcəyimiz məsələlərlə bağlı fərziyyələr irəli sürülür. Bunun səbəbi Ermənistanın öz diasporundan istifadə edərək öz istəklərini həyata keçirmək üçün Aralıq Dənizi, yaxud boğaz ölkələri ilə mövcud olan bütün problemlərdən istifadə etməkdir. Ermənistan Türkiyənin rəqib düşərgəsində razılıq əldə edib. Buna paralel olaraq nə baş verir? Vanda Ağdamar erməni kilsəsinin bərpasını Türkiyə həyata keçirdi və sentyabrda orada dua mərasimi keçirildi. COVID böhranı zamanı Türkiyədə işləyən Ermənistan vətəndaşlarını Gürcüstan vasitəsilə Türkiyə öz vətənlərinə yola saldı. Türkiyədə çox sayda erməni yaşayır, eləcə də çox sayda erməni Türkiyəyə işləmək üçün gedir. Ermənistan hakimiyyəti çalışır ki, reallığa uyğun olmayan, Türkiyənin düşmən olması ilə bağlı stereotip yaratsın.

2. Təbliğat kampaniyası bu qarşıdurmanı xristianlarla müsəlmanlar arasında müharibə kimi qələmə verməyə çalışır. Bu yöndə daha uzağa gediblər – guya Türkiyə Suriyadan cihadçıları gətirib.

**– Bunu ilk dəfə Fransa prezidenti Emmanuel Makron dedi. Mən bu sualı qəsdən sizə vermədim, çünki Azərbaycan şiə dövlətidir və sünni cihadçıların şiələrə yardım etmək üçün gəlməsi inanılmaz görünür...**

– Sizinlə razıyam, görəsən sünni cihadçıları şiələrə yardım etmək üçün gətirməyin mümkün olması fikri kimin beyninə gəlib? Belə bəyanatların yalnız bir məqsədi var – Qərb "cihadçılar" sözünə çox ağrılı reaksiya verir və ona görə də kəskin reaksiyası var.

3. Propaqandadan o yana diaspora siyasəti mövcuddur və bu, Gürcüstana da təsir edəcək. Erməni diasporu çalışır ki, Azərbaycan və türk icmaları ilə qarşıdurma yaratsın. İyul ayında biz bunu Amerika və Avropada gördük.

Gürcüstanda da ermənilər və azərbaycanlılar yaşayır və biz burada da bir-birinə qarşı təşviq siyasəti gördük. Türkiyənin qiymətləndirməsinə görə, bu, olduqca təhlükəlidir - müharibə və müharibə hüquqlarına əsasən aparılan hərbi fəaliyyətlər başqa, müharibədən ictimaiyyətin radikallaşdırılması məqsədi ilə istifadə etmək başqadır. Səbəb isə müharibənin sülhlə başa çatmaq perspektivinin aradan qaldırılmasıdır. Biz hamıya xəbərdarlıq etmişdik. Gürcüstan hakimiyyətini bu istiqamtdə atdığı addımlara görə təbrik edirəm. Hələ ki, vəziyyəti yaxşı idarə edir, ancaq xoşagəlməz faktlar da baş verib. Təəssüf ki, Ermənistanın siyasəti üçüncü tərəfin nifaq salma cəhdlərinə yol açır.

Mənim mesajım belədir: Türkiyə Azərbaycana qardaş ölkədir. Bizim ümumi dil əlaqələrimiz var, amma bizim siyasətimiz obyektiv və qərəzsizdir. Bir daha təkrar edirəm – bizə regionda daimi sülh lazımdır. "Biz" deyəndə yalnız Türkiyəni deyil, həm də Gürcüstanı, Azərbaycanı və Ermənistanı da nəzərdə tuturam.

**– Ermənistanın baş naziri Paşinyan vəziyyəti Münhen müqaviləsi ilə müqayisə edib. Həmin müqavilə ilə faşist Almaniyasına Çexiyanı zəbt etməyə imkan verilib. Rus siyasətçilər açıq şəkildə bildirirlər ki, Azərbaycanı dəstəkləməklə Türkiyə Cənubi Qafqazda təsirini gücləndirmək istəyini bildirib və bu, Rusiyanın geosiyasi uğursuzluğu da ola bilər. Onların bəyanatına görə, zamanında Osmanlı imperiyasından Cənubi Qafqazı alan Rusiya regionda iki oyunçunun olmasına yol verməyəcək. Əlbəttə, Cənubi Qafqazda maraqları olan İran faktoru da nəzərə alınmalıdır. Bu dövlətlər münaqişəyə qoşularsa Türkiyə nə edəcək?**

– Tarixə söykənərək bugünkü siyasəti oxumaq çox yanlışdır. Gürcüstan dövləti, eləcə də Azərbaycan və Ermənistan dövlətləri var. Rus siyasətçiləri neo-Stalinist düşüncələrindən əl çəkməlidirlər. Biz 1992-ci ildən Cənubi Qafqazın bu üç dövləti ilə müasir, tamhüquqlu və bərabərhüquqlu münasibətlər qurmağa çalışırıq. Ermənistanın müstəqilliyini ilk olara Türkiyə tanıdı. Biz Ermənistanla diplomatik münasibətlər qura bilmədik, çünki onlar Azərbaycan torpaqlarını işğal edib. Buna baxmayaraq konsulluq əlaqələrimiz var. Gürcüstan və Azərbaycanla münasibətimiz qarşılıqlı maraq və hörmət əsasında davam edir. Avropalı müttəfiqlərimizin reaksiyası da məni çox maraqlandırır. Avropa İttifaqı Rusiyaya Krıma görə sanksiya tətbiq edib. Paşinyan bildirir ki, "biz Qarabağın müstəqilliyini tanımalıyıq". Əgər Paşinyan Qarabağın müstəqilliyini tanıyıbsa və onun anneksiyasını həyata keçiribsə, maraqlanıram, Avropa İttifaqı Ermənistana sanksiya təyin edəcəkmi? Sülh üçün yalnız problemin bitməsi deyil, bu halda atəşin dayandırılması da vacibdir. Gələcəkdə münaqişənin bərpa edilməməsi əhəmiyyətlidir.

**– Əgər Qafqazda sülhün yaradılması üçün Qarabağ probleminin həlli lazımdırsa, bununla sülh yaranmayacaq ki? Bizim də işğal edilmiş ərazilərimiz var və bizdə də daim münaqişə təxribatına cəhd edilir. Biz əslində Rusiya ilə müharibə aparmalıyıq.**

– Düz deyirsiniz!...

**– Rusiya münaqişəyə qoşulsa nə baş verəcək?**

– Əlbəttə, Rusiyanın Cənubi Qafqazda öz maraqları var. O, Cənubi Qafqazdadır! Cənubi Qafqazda sülh bütün tərəflərin maraqlarını nəzərə alaraq qurulmalıdır – bütün iştirakçı tərəflərin digər tərəflərin maraqlarını tanıması halında.

**– Yuxarıda qeyd etdiniz ki, 30 il ərzində bu problem həll olunmadı və ona görə Azərbaycan qərar verdi ki, güc yolu ilə itirdiyi əraziləri qaytarsın. Belə çıxır ki, gecikdirilmiş münaqişənin həllinin yeganə yolu yenə də güc yoludur?**

– Belə deyil ki, bir gün Azərbaycan oyandı və bu qərarı qəbul etdi. Bir vacib şeyi nəzərə almalısınız – Ermənistan Azərbaycanın gözləmədiyi vaxtda və gözləmədiyi yerə hücum etdi. Azərbaycan Minsk danışıqlar prosesinin bitdiyini və ya əbəs olduğunu düşünmürdü. Azərbaycanın reaksiyasına yalnız hücum səbəb oldu.

Əgər Dağlıq Qarabağın tarixinə baxsaq, əlbəttə, hər iki tərəfin yol verdiyi səhvlər var. Ancaq indi bugünkü vəziyyətdən söhbət gedir, bu gün tarix və narrativlər düzgün qeydə alınmalıdır. Gürcüstan yaxşı bilir ki, bu gün həqiqətləri düzgün ifadə etməsək, gələcəkdə təhrif oluna bilər və ya ümumiyyətlə dəyişdirilə bilər.

**– Cavab ala bilmədim və yenidən soruşuram – əgər Rusiya münaqişəyə qoşularsa və Ermənistana kömək edərsə Türkiyənin ritorikası necə olacaq?**

– İlk görəcəyimiz iş müttəfiqlərimizlə danışmağımız olacaq. Əgər bu həqiqətən baş verərsə, o zaman Minsk Qrupunu nə gözləyir? Rusiya həmin qrupun həmsədridir. Əgər o Ermənistana hərbçilər göndərərsə və Azərbaycana qarşı müharibəyə qoşularsa, maraqlıdır, digər həmsədrlər, Minsk Qrupunun üzvü olan ABŞ, Fransa və Almaniya nə edəcək. Əgər bu Kollektiv Təhlükəsizlik Müqaviləsi formatında baş verərsə – siz yəqin ki, bunu nəzərdə tutursunuz, – o zaman Türkiyə NATO-nun üzvüdür. Ermənistan və Azərbaycan da NATO ilə əməkdaşlıq edirlər. "Belə olarsa siz nə edərdiniz" sualı beynəlxalq münasibətlərin olduqca asanlaşdırılmasıdır. Türkiyə Rusiya ilə Suriya və Liviyada münaqişələrin başa çatdırılması ilə bağlı danışıqlar aparır. Siz jurnalistsiniz və məndən konkret cavab tələb edirsiniz, ancaq bu, asan deyil.

**– Qarabağ müharibəsində Gürcüstan neytral mövqeyini saxlayır. Türkiyə belə yanaşmanı necə qiymətləndirir və bu münaqişənin həlli üçün bizim vəzifəmiz nədən ibarətdir?**

– Gürcüstanın vəziyyəti olduqca çətindir, ancaq sizin mövqeyiniz çox vacibdir. Yaxınlaşan seçkilərdən irəli gələrək, ola bilsin xarici siyasət prioritetli görünmür, amma bu zaman Gürcüstanın iki qonşusunda silahlı münaqişə gedir. Belə vəziyyətdə çox vacibdir ki, münaqişəyə qoşulmuş tərəflərin bir-birinə qarşı istifadə edəcəyi heç nə etməyəsiniz. Mən inanıram ki, Gürcüstanın Xarici İşlər Nazirliyi və digər müvafiq qurumları bütün lazımı ölçüləri götürəcəklər və bu məsələyə təmiz yanaşacaqlar. Gürcüstanın ərazi bütövlüyü ilə bağlı prinsipial mövqeyi var və bu prinsiplərin arxasınca getməyimiz vacibdir.

Düşünürəm ki, Gürcüstanın bu məsələdə düzgün siyasəti var: 1. O həmişə prinsipial mövqe bildirir; 2. Münaqişənin dayandırılması və regionda daimi sülhün yaranması üçün beynəlxalq tərəfdaşlarla işləməyə cəhd göstərir. 3. Gürcüstanın öz ərazisindən toplanmış pulla silah alınması və göndərilməsi üçün istifadə etməyə icazə verməməsi ədalətli mövqedir. Bizim Gürcüstanla əla əlaqələrimiz var, çünki Türkiyə Gürcüstanla sərhədlərinin demarkasiya edildiyi yeganə qonşu ölkədir. Bizim bir-birimizlə bu kimi problemlərimiz yoxdur. Gürcüstanda erməni və azərbaycanlılar birgə yaşayır. Ümumi məntəqələri var, birgə yaşamaq mədəniyyəti isə bizim üçün çox vacibdir. Təəssüf ki, Türkiyə-Gürcüstan münasibətləri haqqında üçüncü tərəflərin başlatdığı yanlış və çirkin təbliğat aparılır. Əsas odur ki, bu propaqandanın yayılmasına dəstək olmayaq. Misal üçün, Ermənistanın parlament sədrinin müavini Lena Nazaryan bildirib ki, Türkiyənin Gürcüstanı işğal etməməsi üçün Ermənistan Gürcüstanın zəmanətidir. Bax, belə faktlarla mübarizə aparmalı oluruq. Gürcüstan belə təbliğatlara qarşı çıxmalıdır.

***Müəllif: Nino Burçuladze***

***Gürcü dilindən tərcümə edən: Aynurə Əliyeva***

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN SUSQUN FƏALLARI – "HUMANİSTLƏR"

Gəncədə baş verən terror aktı zamanı zərər çəkmiş bu balaca körpənin şəklinə saatlarla baxıram, adamın ürəyini dağlayır. Gecə saat 2-də körpə uşaq evində yatdığı bir vaxtda yaşadığı bina gözlənilmədən raket hücumuna məruz qalır. Atası elə həmin gün vəfat edir, anası da bu gün (13.10.2020) dünyasını dəyişir. 90-cı illərdə də eyni şey baş vermədimi? Dinc əhali doğma yurdlarından, evlərindən-eşiklərindən didərgin salındılar. Xocalıda dinc əhaliyə olmazın divan tutuldu, hamilə qadınların qarınlarını süngü ilə deşdilər, dinc insanların başlarını kəsdilər, diri-diri yandırdılar, azyaşlı qızları zorladılar, işgəncə ilə qətlə yetirdilər... Dinc əhalinin nə günahı var, körpələrin nə günahı var?

"Humanistlər", səslərini indiyənə qədər çıxarmayanlar, üzünü görmədiyiniz Parisdə kilsə yananda sanki doğma eviniz yanır qədər dəstək olurduz. İndi nə üçün ağzınıza su alıb durursuz, elə davranırsız ki, sanki heç nə baş vermir, heç nədən xəbəriniz yoxdur… Bir anlıq təsəvvür edin, bu körpə balanın yerində sizin və ya əzizlərinizin də övladı ola bilərdi. "Bura Gürcüstandır, qonşu ölkədə (Azərbacan) baş verənlərdən bizə nə" deyib yan keçməyin. Axı Azərbaycanda yaşayanlar da sizinlə eyni mədəniyyəti, eyni dili, eyni dini bölüşən qanı-qanınızdan olan bacı-qardaşlarınızdır. Heç olmasa "humanist"liyinizi sona kimi qoruyub saxlayın, münaqişə zonasında yerləşməyən Gəncədə dinc əhalinin başına gətirilənlərə münasibət bildirin, mənəvi dəstəyinizi nümayiş etdirin. Ədalətin tərəfində olun, hörmətli vətəndaş cəmiyyətinin susqun fəalları… qonşu ölkə olsun və ya Avropa ölkəsi, ədalətin yanında olmaq hələ heç kəsin başını aşağı etməyib…



Bəli, bura Gürcüstandır, azərbaycanlı və ermənilərin birlikdə yaşadığı məkandır. Gürcüstanda elə kəndlər var ki, hər iki millətin nümayəndələri yanaşı yaşayırlar. Orta məktəbdə, universitetdə birlikdə təhsil alırlar, birlikdə eyni şirkətdə, təşkilatda işləyirlər, eyni layihədə çalışırlar. Ancaq bu o demək deyil ki, ABŞ-da terror aktı törədildikdə səsimizi çıxarmalı, doğma Azərbaycanda baş verdikdə isə lal-kar olmalıyıq. Terror qurbanlarına milli mənsubiyyətinə, yaşadıqları ölkələrə, cəmiyyətdə tutduqları statuslara görə bölüb münasibət bildirmək ikili standartları dəstəkləməkdir. "Nə şiş yansın, nə kabab" devizindən uzaqlaşıb ətrafınızda olan ermənilərə Azərbaycanın haqq səsini çatdırın. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdən, Ermənistanın atdığı addımların beynəlxalq hüquqa zidd olmasından danışın, bütün dünya ölkələrinin, o cümlədən Ermənistanın da Azərbaycanın ərazi bütövlüyünü tanımasından danışın. Qorxmadan, çəkinmədən, ürəklə tarixi həqiqətlərdən danışın. 1992-ci il fevralın 25-dən 26-a keçən o müdhiş gecədən danışın. Axı erməni separatçılarına mülki insanları, körpələri, hamilə qadınları, ahılları qanına-qəltan etmək haqqını kim verməşdir?

Yazıçı-şair Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırım haqqında yazır:

"Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq."

Aygül İSAYEVA
İqtisadiyyat üzrə fəlsəfə doktoru

*AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ*

# ESSENİN İNSAN MƏNZƏRƏLƏRİNDƏN BİR NEÇƏ ÖRNƏK



Saqqalını dörd yerdən rezinlə boğmuş adam şəhərin alaqaranlığında kabusa bənzəyir. Əstəğfürullah, şəpədən xeyir, bu hardan çıxdı? Onun saqqalı mənə ev süpürgəsinin qulpunu xatırladır. Mən ələcsiz vaxtlarımda süpürgə bağlamağı da öyrənmişdim. Mən də elə yazdım ki, guya indi ələcım dünyadan çıxıb, gəl-götürüm yerə-göyə sığmır. Suda isladılmış süpürgənin tutacaq hissəsini bir neçə yerindən boğub iplə bağlamaq gərəkir ki, evi-həyəti süpürən xanımın əlini döyənək etməsin. Saqqallı adam başına vurulmuş kimi, velosipedilə ətrafa bir neçə dəfə dövrə vurur. Sanki burulğana düşüb, çıxa bilmir. Süpürgəsaqqal yolların kəsişməsindən yaranmış kiçik meydançada təkrar iki-üç dövrə də vurub sürüllaha çəkilir.

Şəhərin axşam mənzərəsində qəfildən görünən zənci qız mənim süpürgəsaqqal barədə fikirlərimi sonlandırır. Günü ağ olmuş o qədər qaradır ki, heç olmayan tək. Ayağındakı bəmbəyaz idman ayaqqabısı ilə qulağındakı ağ qulaqcıq onun qaralığı ilə dəhşətli dərəcədə ziddiyyət təşkil edir. Şəbəkədə olduğu bəlli. Bunu arada dükanların işıqlarını əks etdirən süd ağı dişlərinin bir an parıldamasından da bilmək olur. Malidə ən tünd rəngli, yəni şəvə qarası qızların ən gözəl hesab olunduğunu haradansa oxumuşdum. Zənci qızı görcək bunu xatırlayıram. Bələlərinin ölkədə müştərisi hazır yəni. Qara kişmiş, tök cibinə, at ağzına. Burada məndən soruşan gərək, eləmin qaralığından-ağlığından sənə nə.

Ağız-burunlarını maska ilə qapamış adamlar göründükləri kimi də, qaranlıqda it-bata dönürlər. Yaşlıların evlərinin yolunu tutduqları üzlərindən oxunur. Gənclər tələsdiklərini hər hərəkətləri ilə büruzə verirlər. Görünür onları haradasa gözləyənlər var. Görüş yerinə vaxtında çatmaq gərəkdir.

Bəzənib-bərtənməyi incəliyinə qədər gözə çarpan qız gül dükanının yaxınlığında durmuş gəncə sarı əlini yellədir. Əlinin ağlığı axşamın toranlığında bəyaz kəpənəyi xatırladır. Əlini yelləməklə deyərsən ki, oğlanla görüşə yox, başqşa bir yerə tələsir. Əslində ikisinin də bu görüş üçün darıxmaqları orta idi. Gəncin vargəlləri, qızın ütələk yerişi, özləri hiss etməsələr də, baxanlara hər şeyi anladırdı, onları ələ vermək üçün yetərli idi.

Küçə fənərinin tam altında qoyulmuş metal zibil qutusuna yaxınlaşan sərsərini çoxdan tanıyıram. Tanıyıram demək də birtəhər çıxır. Üzündən təbəssüm əskik olmayan bu adamla küçədə bir neçə dəfə qarşılaşmışam. Onu iki-üç dəfə zibil qutularının üstündə yerləşən külqabılarından siqaret kötükləri toplayarkən görmüşdüm. Tanışlığımız bundan artıq deyil yəni. Siqaret çəkənlərin yarımçıq söndürdükləri kötüklər onun üçün yoğurmayıb, yapmayıb tapdığı kökə idi. Yox bir küçə sərsərisi gündə 5-10 avro siqaretə pul verəsidir? Koronavirusa yoluxmaq kimi əndişəsi də yerli-dibli yox. Nədən ki, bu barədə düşünməyə macalı da yoxdur. Bəlkə belə bir virusun varlığını eşitməyib də. İçki və siqaretdən başqa bir düşüncəsinin olması belə mümkünsüz görünür. İçkiyə pulu güclə yetişdirir. Dünyanın bütün sərsəriləri eyni taleyi yaşamırlarmı? Niderlandda səhərin gözü açılmamış supermarketin qabağını kəsdirən çəlimsiz zənci əyyaşın pul almaq ümidiylə alış-verişə gələnlərin qabağına yüyürməsi yadıma düşür. Bu zənci əyyaş nədən özünü yazımın gözünə qatdı, görən ola? Niyə kiçik bir yazıda iki dəfə zəncilərdən bəhs etdim ki? Bugünü də belə yola verək. Məndən soruşan gərək niyə uzağa gedirsən, elə öz kəndinizdə yüz qramdan ötrü dəridən-qabıqdan çıxanlardan niyə yazmırsan axı? Hamısı bir bezin qırağı. Dəmirdi, misdi, hamısı bir cinsdir.

Hər şeyə maraqla baxan qoca cütlük yaşıdları ilə söhbət üçün yeni mövzu axtarışına çıxmış kimi. Sabah tay-tuşları ilə bəs nədən danışsınlar? Bütün günü xatirələrdə ilişib qalası deyillər ki? Əslində 80-90 yaşı çoxdan haqlamış bu cütlük hər mövzunu çözmüş kimi görünür. Cıqırlarını çıxarmadan əl-ələ verib addımlayan bu ixtiyar cütlük elə bil yeyib-içib dünyadan köçüb. Bəlkə hara gedəcəklərini belə unudublar. Sanki addımlarını məqsədsiz-filansız atırlar. Hara gəldi. Bu yaşa məqsədin qalması da mümkünsüz görünür. Nədən ki, ləng yerişlərindən, ətrafa elə-belə, boşluğa baxırmış kimi nəzər salmalarından yalnız bunu çıxarmaq olar. Üstəlik tələsən yerləri, tökülüb qalan işləri də olmamalıdır. Oğulları evli, qızları göylü yəqin ki? Hər işləri sahmanlı kimi. Dünyanı yorub yola saldıqları ortada. Ömrün qürubunu yola vermək üçün hər imkanları var kimi görünür. Eh, mən nə yapışmışam bu qocalardan axı?

...Qürbət axşamının alatoranlığında qocalığın buz nəfəsi hardansa məni vurur, sanki onun ayaq səslərini eşidirmiş kimi az qala oturduğum yerdə eymənirəm...

***Afiq MUXTAROĞLU***
***Almaniya, Essen***

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## AMKROBA (HƏMKARLIQ)

*(əvvəli ötən sayda)*

Həmkar fars sözüdür və birgə fəaliyyət deməkdir.

Sənətkarlığın hər bir sahəsinin öz həmkarı var idi.

Bu təşkilata zümrəsindən və milliyyətindən asılı olmayaraq bütün yerli sənətkarlar daxil ola bilərdi.

Həmkarın ustabaşının əncam çəkdiyi öz müdiriyyəti var idi.

Bütün həmkarların gerb və embleminin təsvir olunduğu öz xüsusi bayrağı var idi. Bu, həmkarın rəmzini təşkil edirdi. Hər bir həmkarın öz himayədarı var idi. Məsələn, çəkməçilərin bayrağında Elianın (Elçi İlya), dabbağların - Məryəm ananın, şərabsatanların bayrağında – üzüm salxımı, qəssabların bayrağında İbrahim peyğəmbər öz quzusu ilə, dülgərlərin bayrağında Nuh peyğəmbərin gəmisi və sair təsvir edilmişdir. (Memarlar, xarratlar və dülgərlər öz bayraqlarına sonradan göyərçin də əlavə etdilər. Bu "göyərçin"in tarixi belədir: Natliğeba günü Kürün kiçik qoluna xaç buraxırdılar, Kürdə atların cıdırı keçirilirdi. O tərəfində qoşun dururdu, bu tərəfində şəhərin əhalisi. Tüfəng atırdılar, zurna çalırdılar və eyni zamanda göyərçinlərin dəstəsini də buraxırdılar. Bir dəfə belə "quş uçurtma" zamanı bir göyərçin dülgərlərin bayrağına qondu. Sənətkarlar bunu möcüzə kimi qəbul etdilər və bundan sonra dülgərlərin bayrağından gümüşü balaca göyərçin fiquru də asdılar).

Ustabaşını səsverme yolu ilə seçirdilər (Qeyd etmək lazımdır ki, ustabaşı işin həllində bir yarım səsə malik idi). Bəzilərinin fikrincə, ustabaşını dəyişmirdilər və o, bu vəzifədə ömürlük qalırdı. Əlbəttə, ustabaşının müddəti müəyyən edilməmişdi, lakin aydındır ki, dövr ilə yanaşı ustabaşılar da dəyişirdilər. Ustabaşının uzun müddət öz vəzifəsində qalması onun qabiliyyətindən və daha çox onun nüfuzundan asılı idi.

Həmkarın öz nizamnaməsi var idi ki, burada da, qeyd etmək lazımdır ki, kollegiyalılıq ciddi şəkildə qorunurdu. Məs.: həmkarın heç bir üzvü öz yoldaşı tərəfindən başlanmış işə əl qoymurdu. İşdən çıxarılmış hansısa dülgərin əvəzinə elə bu sənət həmkarının üzvü "kəsad" işə yaxın durmurdu. Bir dərzi tərəfindən ölçülüb-biçilmiş arxalığı o birisi tikmirdi və sair. Eləcə də ustanın əl buyruqçusunu və şəyirdini tovlayıb öz tərəfinə keçirmək qadağan idi.

Həmçinin demək lazımdır ki, şəyird ustanın kargahı (birinci əlaltısı, köməkçisi - M.M.) olana kimi öz peşəsindən başqa hər cür xırda işləri görürdü: Böyük ustaların əl buyruqçusu idi, dükanı süpürürdü, evdən nahar yeməyini gətirirdi və sair işləri görürdü. Şəyirdə məvacib verilmirdi. Ustadı şəyirdə yalnız yemək yedizdirirdi və onun əyin-başının qayğısına qalırdı. Şəyird peşəni öyrənəndə illik məvacib təyin olunurdu. Bəzilərinin atası isə əksinə, uşağının peşə öyrənməsi üçün özü pul ödəyirdi.



Peşə öyrənməyin müddəti müəyyən edilməmişdi, lakin şəyird adi olaraq öz peşəsini 5-6 il ərzində başa çatdırırdı. Bu, şəyirdin qoçaqlığından və peşənin çətinliklərindən asılı idi: Bəzi peşənin öyrənilməsi artıq müddət tələb edirdi, bəzisi isə asan idi, az müddət tələb edirdi.

Şəyirdi təhvil vermək yaşı ciddi şəkildə müəyyən edilməmişdi, amma adi olaraq şəyirdin götürülməsi 8 yaşdan 10 yaşadək olurdu.

Hər bir həmkarın kef məclisi üçün ildə bir dəfə yazın bir günü seçilmişdi. Demək olar ki, qırx gün ərzində (Ağdqomanın bazar ertəsi günündən Amağlebaya qədər (xristianlıqda bayram, İsa peyğəmbərin səmaya qalxması - M.M.) Ortacala və şəhərin başqa sahil həndəvərləri həmkarların bayramları üzündən səs-küylü olurdu. Şəhərin bağlarına gedirdilər, Tanrının adına qurbanlarını kəsərdilər və şiləplov hazırlayardılar. Bu şiləplov kasıb-kusub arasında paylanılardı. İri yaxşı bir qazanı özünün "cvarismama" (Kilsənin həndəvərlərindəki təndirlərdən birində bişirilən lavaş - M.M.) lavaşları ilə həbsxanaya, məhbuslara göndərirdilər. Elə həmin gün gənc şəyirdlərin xeyir-duası baş tuturdu.

Bu bayram mərasiminin təsvirinə keçməmişdən öncə demək lazımdır ki, sənətkar dərəcəsinə nail olmaq üçün iki ilkin pilləni: şəyirdilik və əl buyruqçuluğunu keçmək lazım idi. "Kargah – əl buyruqçuluğu adını almaq demək olar ki, rəsmi baş verirdi. Sənətkar ekspert olaraq ustabaşını, ağsaqqalı, igitbaşını və həmkarın bir neçə fəxri üzvünü dəvət edirdi. Şəyirdin əl işini yoxlayırdılar və müvafiq yekun nəticə çıxarırdılar. Əgər əl işi qənaətbəxş olardısa, kargahlıq dərəcəsi verilirdi, əgər olmazdısa, onda yenə şəyird olaraq qalırdı, əl işlərində fərdi bədii istedad göstərməyənə qədər.

Ustad şəyirdinin yaxşı və ya pis olmasına şəxsən məsuliyyət də daşıyırdı, çünki sənəti öyrənmək təcrübəni ötürməklə və onun təhriki ilə baş verirdi. Gənc kargah şəyirddən onunla fərqlənirdi ki, kargah hansı sənətkarla istərdisə onunla da işləmək ixtiyarı var idi. Şəyird isə valideynlərinin tapşırdığı sənətkarın yanında qalmalı idi. Kargah bir şeydə məhdudlaşdırılmışdır. O, sənətkarın dükanından başqa müstəqil işləyə və ya da sənətkara demədən sifarişlər qəbul edə bilməzdi.

Lakin sənətkar tam, püxtələşmiş usta olanda o da öz əlaltılarına – şəyird və kargahlara, ona qarşı necə davranırlardısa, eləcə davranırdı. Bir sözlə, həmkarın üzvü üçün bu ənənəvi peşəni öyrənmək bir nəsildən o biri nəslə ötürülməsinin əsasını təşkil edirdi.

Sənətkar olaraq xeyir-duanın verilməsi belə baş verirdi: Bir sahənin sənətkarlarının nümayəndələri emalatxanaya toplaşardılar, bayrağı götürərdilər və zurnanın sədaları altında irəlicədən təyin olunmuş hansısa bağa yola düşərdilər. Xeyir-dua üçün hazırlananlar həmkarın başqa üzvlərindən fərqlənirdilər ki, bu bayram toplusunun önündə bayraqdarın əynində, ipək libas, belində sartğeli (Dini xidmət kəməri - M.M.) olurdu. Bu kəməri xeyir-duadan sonra ustabaşına verirdilər.



Bu kəmərə özlərinin əl aləti bərkidilmiş olurdu, məsələn, çəkməçilərin – yumruq, dülgərlərin – tərəzi, zərgərlərin – simkəş, dərzilərin – şimşə (simşəd) (xətkeş - M.M.) və sair. Bu bayramı təşkil edənlər, ona qatılanlar bağa gedirdilər, orada da ehtiyata buraxılmaq və saristi ("starostluğu" - M.M.) hüququnu vermək üçün həmkarın öncə getmiş hansısa təcrübəli və etibarlı üzvü qarşılayardı. Bir tərəfdə nəhəng qazan dururdu ki, içində də şilə-plov hazırlanırdı. O biri tərəfdə isə mavi süfrə açılırdı ki, burada da boşqablar əvəzinə üzüm, əncir və kələm yarpaqları sərilirdi, stəkanların yerinə isə gil piyalələr sıra ilə düzülürdü. Süfrənin ətrafında müqəddəs şamlar yanırdı ki, bunlar da, şəksiz, axıra kimi əriməli idi.

Bax, bu zaman bütün həmkarın iştirakı ilə gənc kargahın sənətkar olaraq xeyir-duasının verilməsi baş tuturdu. Belə ki, ona kimi həqiqi usta və həmkarın sənətkarı, tam üzvü hesab olunmurdu. Bu xeyir-duaya bu mərasimdən öncə sənətkara əxlaq dərsi keçən keşişlər də dəvət olunurdu. Ustabaşı isə ona üç dəfə şillə vurardı ki, bu da sənətkara attestatın verilməsi idi.

Şillə vurmağın da öz qaydaları var idi. Ustabaşı ilə kargah arasında böyük-kiçikliyin son həddini bildirən bu şillə belə vurulmalı idi: Ustabaşı xeyir-dua üçün hazırlanmış sənətkarın hər iki əlinin baş barmağını bir əli ilə tutar və sonra şilləni vurardı. Şilləni üç dəfə vururdular: əvvəlcə sağ yanağına, sonra sol yanağına və üçüncünü yenə sağ yanağına. Son şillə, deyilənə görə, ən kəskin, ən bərk olmalı idi (Son vaxtlar ustabaşının "əl qoyması ilə" qeyri-sənətkar da olurdu. Həmkarın ayininə inanan və ustabaşının xeyir-duasını istəyən kəs bu bayrama gedir və ustabaşından onun xeyir-duasını istəyirdi. Bu halda ustabaşı şilləyə müraciət etmirdi, bu cür xeyir-dua "proşta" (rus sözündən götürülüb, sadəcə olaraq deməkdir - M.M.) ilə baş verirdi).

Bundan sonra süfrə arxasında əyləşərdilər, şənlik və nahar başlayardı.

Bu bayram iki-üç gün davam edərdi. Birinci gün xüsusi gün, xeyir-dua günü hesab olunurdu. İkinci gün təkcə böyüklər kef edirdilər. Üçüncü gün Namtsesoba (Artıq qalmış yeməklərə gəlmək - M.M.) adlanırdı.

Bu bayramın sonu belə idi: Axşamqabağı hamı bir yerdə - gül dəstələri ilə, yanan şamlarla, çılçıraqla bağdan qayıdırdılar və yenə ilk dəfə prosesin hərəkətə gəldiyi həmin emalatxanaya yollanırdılar. İndi dükanın önündə şənlənmə keçirilirdi: mahnı, rəqs, nərə çəkmək olurdu. Əgər bağda keçirilən kef məclisində ilk sağlıqla dünyasını dəyişən ustalar yad edilirdisə və piyalə ilə şərabı çörəyin üzərinə tökürdülərsə, burada, bu yeni süfrədə bu bərk sərxoşluq nəticəsində süstləşən camaat ilk süfrənin ləzzətliliyini daha qoruya bilmirdilər və kef məclisi mənasız səs-küylə, çığır-bağırla sona yetirdi.

*(ardı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR
2020-Cİ İL
№015 (119)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN TÜRKİYƏDƏN ALDIĞI VƏ SATDIĞI ƏSAS MƏHSULLAR



Milli Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar-sentyabr aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 8,121 milyard ABŞ dollar təşkil edib. Bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz azdır.

Hesabat dövründə Türkiyəyə məhsul idxalı 14,2%, ixracı isə 7,9% azalıb.

**Gürcüstandan Türkiyəyə ixrac edilmiş ən böyük məhsul qrupları:**

• Trikotaj məhsulları – 28 485 600 dollar;

• Ferro ərintiləri – 26 495 400 dollar;

• Kostyumlar, kişi, yaxud oğlanlar üçün trikotajlar, toxumalar – 11 345 500 dollar;

• Balıq və ya dəniz məməlilərinin yağları, hissələri – 9 354 300 dollar;

• Ət, balıq və xərçəngkimilərin unu və qranulları – 9 080 600 dollar.

**Türkiyədən Gürcüstana idxal edilən ən böyük məhsul qrupları:**

• Qara metal borular və içi boş profillər – 32 835 600 dollar;

• Üyüdülmüş müalicə vasitələri – 32 744 800 dollar;

• Qara metal konstruksiyalar və onun hissələri – 25 816 300 dollar;

• Digər geyim nümunələri daxil olmaqla hazır məhsullar – 23 086 800 dollar;

• Karbon poladdan hazırlanmış xüsusi bucaqlar – 16 744 400 dollar.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANIN RUSİYADAN İDXAL VƏ İXRAC ETDİYİ ƏSAS MƏHSULLAR



Milli Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar-sentyabr aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 8,121 milyard ABŞ dolları təşkil edib. Bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz azdır.

Hesabat dövründə Rusiyaya məhsul idxalı 5,1%, ixracı isə 16,8% azalıb.

**Gürcüstandan Rusiyaya ixrac edilmiş ən böyük məhsul qrupları:**

• Təbii üzüm şərabları – 82 513 300 dollar;

• Ferro ərintiləri – 79 299 300 dollar;

• Mineral sular – 29 711 900 dollar;

• Spirtli içkilər – 21 864 800 dollar;

• Təzə ərik, albalı, gilas, şaftalı, gavalı və bağ göyəmi – 19 331 500 dollar.

**Rusiyadan Gürcüstana idxal edilmiş ən böyük məhsul qrupları:**

• Neft və neft məhsulları – 93 062 500 dollar;

• Buğda və meslin – 80 289 700 dollar;

• Neft qazları və qaz halında olan karbohidrogenlər – 26 336 600 dollar;

• Günəbaxan yağı – 22 786 600 dollar;

• Telefon aparatları – 20 923 600 dollar.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANIN AZƏRBAYCANA İXRACI VƏ İDXALI AZALIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-sentyabr aylarında Gürcüstandan Azərbaycana 327,8 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub.

Ötən ilin eyni dövrü ilə müqayisədə Gürcüstanın Azərbaycana ixracı 9,3% azalıb.

Doqquz ay ərzində Azərbaycan Gürcüstanın ümumi ixracında 13,6% payla Gürcüstanın əsas ixrac tərəfdaşları arasında Çindən sonra II yeri tutub.

Məlumata əsasən, bu ilin yanvar-sentyabr aylarında Gürcüstan Azərbaycandan ümumi dəyəri 342,1 mln ABŞ dolları olan məhsul tədarük edib.

İllik müqayisədə Gürcüstanın Azərbaycandan idxalı 14,3% azalıb.

Hesabat dövründə Azərbaycan 6% payla Gürcüstanın Türkiyə, Rusiya, Çin və ABŞ-dan sonra V əsas idxal tərəfdaşı olub.

*Mənbə: report.az*

## NOYABRIN 1-DƏN AVROPA ÖLKƏLƏRİNƏ AVİAREYSLƏR BƏRPA OLUNUR



Gürcüstan hökumətinin qərarına əsasən, noyabrın 1-dən etibarən Tbilisi və Kutaisi şəhərlərindən Avropa ölkələrinə müntəzəm aviareyslər bərpa olunur.

Tbilisi beynəlxalq hava limanından Doha, Varşava, Afina, Amsterdam, Vyana, Berlin, Milan, Kutaisi aeroportundan isə Katovitsa, Vilnüs və Dortmund şəhərlərinə uçuşlar həyata keçiriləcək.

## GÜRCÜSTANIN XARİCİ TURİZMDƏN GƏLİRİ 95,1% AZALIB



Gürcüstanın Milli Bankının hesabatına əsasən, bu ilin sentyabr ayında Gürcüstan xarici turizmdən 15,7 milyon ABŞ dolları gəlir əldə edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə gəlirin məbləği 302,9 milyon ABŞ dolları, yaxud 95,1% azalıb.

Sentyabrda Gürcüstan 52,1 min beynəlxalq ziyarətçi, 41,8 min turist qəbul edib. Beynəlxalq ziyarətçilərin sayında illik müqayisədə 93,8%, turistlərin sayında isə 92,2% azalma qeydə alınıb.

## BU İL ÖLKƏDƏ 6 YENİ SES İSTİFADƏYƏ VERİLİB

İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin məlumatına əsasən, 2020-ci ildə Gürcüstanda ümumi quraşdırılmış gücü 27,47 MVt olan 6 yeni su elektrik stansiyası (SES) istifadəyə verilib.

Məlumata görə, bu ilin sonuna qədər ümumi quraşdırılmış gücü 3,72 MVt olan daha 3 SES-in istismara verilməsi planlaşdırılır.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.